# Üç gün cənnətdə





Nuşabə Əsəd Məmmədli

**(Hekayə)**

**(əvvəli ötən sayımızda)**

***Murad nahar edib, işə getməyə hazırlaşdı.***

***-Bax mənsiz getmə yaxşımı? Özüm gəlib aparacam.***

***-Evim yaxınlıqdadır axı, qadan alım.***

***-Dedim gözlə,-Murad qapıdan çıxdı.***

***Gülarə nahardan sonra uşaqlarla viktorina oynadı. Anasına Muradın yoldaşı birgə yer-yığış etməyə kömək elədi. Axşam atası işdən gələndə, onnan söhbət elədi gəlmişdən-getmişdən. Gülarə özünü bu doğma ocaqda çox rahat hiss edirdi. Atası özəl şirkətlərin birində mühəndis işləyirdi, ancaq ədəbiyyata sənətə böyük maraq göstərirdi. Gülarədən oxumaq üçün bir dəyərli kitab istədi. Axşam işdən qayıdan Murad onu evə apardı. Gülarə evlərinə çatanda, Turqayın onların küçələrindən keçdiyini gördü.***

-Görən o buralardan nə edir? Ürəyi əsdi.

Gülarə qapını açanda ərindən sms gəldi.-Mən bu gün növbətçiyəm, qapını bağla, arxayin yatın.

Ancaq gecəyarı Gülarə oyandı, biixtiyar yanına baxdı. Ərinin çarpayısı yenə boş idi. Son vaxtlar o nədənsə tez-tez növbətçi olurdu, evə gəlmirdi. Gülara ərinin eşq macarasını bilirdi, lakin heç vaxt bunu üzünə çəkmirdi. Gülarə yatağından qalxdı, qazı yandırıb qəhvə bişirdi. Nihad öz çarpayısında rahatca yatırdı. Hərdən gülümsəyirdi. Yəgin yaxşı yuxu görürdü.

—Allahım, özün balamı saxla! Özün qardaşımı, onun balalarını, valideyinlərimi saxla!. Özün balamı atasız qoyma. Allahım özün məni qəlbimdəki bu məşəqqətən qurtar. Razı olma ki, mən yolumu azım, bir adım iki olsun!.

***Ona elə gəldi ki, Böyük Yaradan onun yalvarışlarını eşidəcək! Mütləq eşidəcək!. Gülarə qəhvə içəndən sonra yuxu dərmanı atıb, oğlunun yanımdakı divana uzanıb yuxuya getdi. Yuxuda o, yenə Turqayı gördü. Ucu-bucağı görünməyən səhrada yanaşı bir-birinə toxunmadan gedirdilər. Ətrafda bir inni-cinni yox idi. Hardansa əsən külək onların üstünə çiçək yağışı tökdü. Sonra tufan qopdu. Səhranın qumunu onların üzərinə yağdırdı. Bu qiyamətdə Gülarə qardaşını gördü. O, Gülarəyə tərəf qaçırdı. Turqay görünməz oldu. Hardansa əri peyda oldu. Əri qucağında Nihad, Gülarəyə tərəf gəlirdi.***

—Ana, ana!- Nihadın səsini eşitdi Gülarə.-Noldu, qurban olum.

—Mən qorxulu yuxu gördüm. Gülarə onu qucaqlayıb öpdu.

—Yadından çıxart yuxunu, artıq durmaq vaxtıdı. Məktəbə hazırlaş.

Bu gün Gülarənin dərsi yox idi.

O yadına saldı ki keçən il dekretə çıxan bir müəllimənin yerinə bu məktəbə işə düzələndən sonra tədris ocağında Novruz şənliyi keçirildi. Zalda bütün masalara şirniyyat düzülmüşdü; paxlava, şəkərbura, nazik və s. Musiqiçilər dəvət olunmuşdu. Çıxəşlar bir-birini əvəz edirdi. Birdən "Misri" havası çalındı və nağılvari gözəl kişi rəqs etməyə başladı. O çox gözəl oynayırdı. Gülarənin yanındaki müəllimə—Turqay müəllimdir dedi.

Turqay Gülarənin qabağında rəqs etdi. Gülarənin ayağından sanki buxov asılmışdı. O ayağa durmadı. "İxtiyarım yox yad kişiylə rəqs etməyə. Mən ərli qadınam" düşündü o. Gülarə başını aşağı saldı. Turqay uzaqlaşdı

***

Turqay gecə çarpayısından qalxdı, həyətə düşdü. Telefonla kimləsə danışdı sonra otağa döndü. Sabah səhər dostu Valeh müəllim gələcəkdi onu hərbi komissarlığa səfərbərlik məntəqəsinə aparmağa—orada avtobuslarla –savaş meydanına.

Hələ işıqlaşmamışdı. Gülsüm qalxıb çay qoydu, masanın üstünə təmiz süfrə saldı. Evdə olan bütün neymətlərdən masaya düzdü. Sanki bayram süfrəsi açdı. Uşaqları oyatdı. Onlarda yuyunub masa arxasına keçdilər. Qızı ağlayırdı.

—Ağlama balaca, kişilər muharibəyə getməlidilər. Sənin də qardaşının da savaş meydanı—təhsildi. Əgər siz yaxşı oxusanız atana da anana da böyük sevinc bağışlamış olarsız. Ata sizə nə öyrətmişdi.

—Qarabağ Azərbaycandır; bir səslə dedilər uşaqlar.

Bir azdan Valeh müəllimin maşınının siqnalı eşidildi. Turqay Gülsümü də ucaqları ba qucaqlayıb evdən çıxdı. Turqay arxaya çevrilsəydi, Gülsümün ağladığını görərdi.

—Valeh maşını məktəbimizin yanına sür, orda bir balaca işim var.

—Oldu.

Maşın məktəbə çatmamış Turqay maşını saxlatdı. O istəmirdi Valeh Gülarəni görsün. Turqay cəld maşından düşdü. Yeyin addımlarla məktəbə sarı getdi. Gülarə onu gözləyirdi. Gəlbində yenə çaxnaşma oldu. Əlləri buza döndü.

—Salam. Mən indi müharibəyə gedirəm. Gəldim sənə deyim ki, şəhid olmağa gedirəm. Ona görə ürəyimdəkiləri demək istəyirəm....

Mən səni burdan göyə qədər çox istəyirəm. Biz bir-birimizə gec rast gəldik. Ancaq xoşbəxtəm ki, ruhumda ömrümdə sən varsan.

—Bu hisslər qarşılıqlıdır. Mən xöşbəxt, əri tərəfindən sevilən qadın deyiləm—Gülarənin dodaqları səyridi. Fəqət mən min mənəvi işgəncəyə qatılıb balamı böyüdürəm. Mən səni görməmək üçün müəllimlər otağına da getmirəm. Səni görmək mənim üçün məşəqqətdir. Görməmək də zülümdür. Bizə Allahın yazığı gəlmədi. Biz taleyimizlə barışmaliyıq. Sən məni başa düş, qurbanın olum. Maşın siqnal verdi. Tək-tük üzləri maskalı müəllimlər məktəbə gəlirdi.

—Sağ ol, Gülarə.

"Sənə dəyəcək güllə mənə dəysin" Ürəyindən keçirtdi Gülarə.

"Əlacım olsaydı səni dünyanın ən xoşbəxt qadını edərdim" düşündü Turqay. Lakin o hələ bilmirdi ki, cəmi on gündən sonra yəni oktyabırın 17 də ermənilər Gəncəyə ballistik raket atacaq, bir çox evlər, o cümlədən Gülarənin yaşadığı ev də dağılacaq. Ertəsi gün dağıntılar altından Gülarənin meyiti çıxarılacaq. Onun tək balası Nihad dağıntılar altından çıxarılacaq, lakin uşaq salamat qalacaq. Onun aldığı xəsarət ağır olmayacaq. O gecə müstəntiq Paşazadə evdə gecələməmişdi.

Bu xəbəri Füzuli savaşında eşidən Turqay üzünü göyə tutub ağlamaq istədi. Ancaq ağlaya bilmirdi. Onun sinəsindən qırıq-qırıq hıçqırıqlar çıxırdı.

—İrəli hücüm!!

***Turqay özünü irəli atdı. Atəş səsləri dağlarda əks— səda verirdi. Turqay sanki qan gölündə irəliləyirdi. Ətrafı seyrəlirdi.Yer qana boyanırdı. Meytlər elə bil torpağa sarınırdılar ki, düşmənə isbat etsinlər ki, bu torpaq bizimdi.Füzuli uğrunda gedən döyüşdə Turqay ayağından yaralandı. Köynəyinin ətəyini cibəndiki bıçaqla kəsib, yaranı bağladı.***

***—İrəli,hücum!! Turqay təkrar etdi:— İrəli hücum!!! Səsi nərəyə döndü. Onun gözlərini elə bir qan örtmüşdü. Düşmənlə aralarında az məsafə var idi. Avtomatının boşalmış darağını dəyişdi. Xeyli atışmadan sonra səssizilik çökdü. Turqay sinəsinə bağladığı üçrəngli bayramızı yüksəkliyə sancdı.***

Artıq dan yeri sökülürdü. Növbəti döyüş Zəngilan, Qubatlı və Şuşada olacaq. Komandir iki əskəri aralıqda dayanan yük maşınına sarı yolladı. Əskərlər qutularda xeyli quru ərzaq, siqaret gətirdilər.

—Gəncədən müstəntiq Paşazadənin sovqatıdır. Gəncə bombardman olmamışdan göndərib. Bizə indi çatdırdılar—döyüşlər aman vermirdi, söylədi komandir.

***Turqayın çəkmələrinə qan dolmuşdu. Yaralı ayağı şişdiyindən şalvarı dar gəlirdi. O bıçağı ilə şalvarını kəsdi. Döyüçülərdən biri flyaşkada saxladığı spirti onun yarasının üstünə tökdü. Turqayın dili də elə bir tutulmuşdu. İndi sakitlik çökəndən ətrafında dünən danışan, bu gün artıq gəncliklərini, ömürlərini itirmiş savaş dostlarını gördü. Bombalanan evin dağıntıları altında həlak olan Gülarəni gözlərinin qabağına gətirdi. Turqay şəhid olmuş döyüşçü yoldaşları kimi üzü üstə qan hopmuş torpağa yıxıldı və indi hönkür-hönkür ağlamağa başladı.***

***—Qabaqda bizim hələ çox döyüşlərimiz var, hələ çox torpaqları azad etməliyik. Şuşa savaşı bizi gözləyir—komandirin səsini eşitdi Turqay.***

Sanitar maşınları metitləri yığmağa başladı. Yaralılar üçün başqa maşın ayrılmışdı. Turqay imtina etdi getməkdən. Tibb işçiləri onun yarasını təmizləyib məlhəm qoydular, döyüş meydanından yaralıları və ölənləri götürüb getdilər. Hər iki tərəfdən xeyli yaralanan, ölən vardı.

Bir qədər fasilədən sonra, yenidən əmr gəldi—irəli hücum! Ölənlərin, yaralıların yerinə eytiyatdan yeni döyüşçülər, türk əskərləri gəlirdi. Onlar bu savaşda misilsiz sucayət göstərirdilər. Beləliklə daha bir neçə bölgədə üçrəngli bayrağımız dalğalandı. İndi hədəf—Şuşa udi.

Artıq 7 noyabr idi. Turqaygilin dəstəsi əmr almışdı ki, düşmən üzərinə hücuma Qırmızı Bazardan keçiləcək. Ancaq hücum vaxtına az qalmış əmr dəyişdi—hücuma meşədən keçəcəklər. Keçdilər də. Dağlarda əlbəyaxa savaş başlandı. Turqay öz bıçağı ilə neçə düşməni məhf etdi.Sonra bıçaqla onu da vurdular. Onun gözlərinə qaranlıq çökdü, yıxıldı. Bütün cismini bürüyən ağrı onu tərk etdi. Zülmət qaranlıqda Turqay birdən özünü ağ bulutların içində hiss etdi. Bulutlar arasında o, atasını, anasını, şəhid dostlarını gördü. Hamısı ona qüssə dolu nəzərlə baxırdı. Sonra bəyaz bulutların rəngi dəyişdi—bulutlar pəmbə rəngə çevrildilər. Turqay sərrast addımlarla bulutların arasından keçməyə başladı. Getdikcə o, özünü ilahi gözəllik əhatəsində görürdü. Hər yan yaşıl ormanlar, qeyri adi güllər, çiçəklər, şəlalələr, cürbəcür meyvə ağaclarına bürümüşdü.Turqay gəzdikçə heyrətini gizlədə bilmirdi. Ancaq dup-duru suyu olan çayı görəndə anladı ki, cənnətə düşüb. Çayın qırağında Turqay ayaq saxladı, kaşı kasanı götürüb, çaydan su içdi. Yoluna davam etdi. Yenə də çay gördü. Ancaq burada su əvəzinə süd axırdı. Çayın yanında xeyli kaşı, kasalar, küzələr vardı. Süd çayının kənarında alçaq masaların üstündə löyünbəlöyün yeməklər vardı. İri ağac tabaklarda isti təndir çörəkləri qoyulmuşdu. Turqay fikirləşdi ki, qədim filosoflardan biri düz deyirmiş "Hətta dünyada iki nəfər qalsa belə, onlardan biri mütləq ağa olacaq, digəri nökər".

***Bu yeməkləri bişirən, çörəkləri təndirə yapan insanlar var axı. Onlar zəhmət çəkirlər.***

***Turqay təndir çörəyindən qopardıb, arasına pendir qoydu. Ləzzətlə yedi. Sonra xeyli gəzdi, ağaclarda bitən meyvələrdən dərdi. Tanımadığı adamlar ona salam verib gedirdilər. Onlar da ağaclardan meyvə üzür, çaydan kasalara süd doldurub içirdilər.***

***Cənnətdə millət, Vətən, məqsəq, amal mübarəzə etmək məvhumları yox idi. Hər kəs ancaq yeyirdi gəzirdi, yorulanda yatırdı, ətrafdakı marallar, ceyranlar kimi. Turqay xeyli gəzdi. Nəhayət o bal axan çayı gördü. Çay kəhrəba rəngdə idi. Bu çayın ətrafında olanların çoxu uşaqlar idilər. Burada körpələr ceyranlarla, marallarla oynayırdılar. Burada hevanlar insanlardan qorxmurdu.***

Turqay fikirləşdi ki, artıq neçə müddətdir buradadır, az qala 24 saat, ancaq nədənsə qaranlıq düşmür, o qöydə ulduzları görmür, şər qarışmır. Cənnətin çoxdankı sakinindən soruşdu ki gecə nə vaxt olacaq? Cənnət sakini cavab verdi ki, burada heç vaxt qaranlıq olmur, fəsillər dəyişmir. Həmişə ılıq yaydır. Həmişə ağaclar bar gətirir.

Turqayın hesablamasına görə, o artıq üç gün idi ki, bu möcüzəli dünyaya düşmüşdür. Burda olanlar məqsədsiz, amalsız mübarizəsiz mövcudluqlarına davam edirdilər. Ancaq yeyirdilər, süd içirdilər ağaclardan meyvə üzürdülər. Bu adamlara onun yazığı gəldi.

Birdən ürəyindən bir gizilti keçdi—uzaqdan Gülarəni gördü. O Turqayı görcək sanki ayaqları tutuldu. Addım ata bilmədi. Turqay onun qarşısına getdi.

—Salam.

—Salam, —Gülarə kədərlə baxdı Turqaya;—indi mən demək istəyirəm ki, səni burdan yerə qədər çox istəyirəm.

***—Mən xoşbəxtəm ki, səni görürəm, səsini eşidirəm. Həmişə səsin qulaqlarımında səslənirdi.***

***—Sən indi qayıdacaqsan. Səni ömür gün yoldaşın, uşaqların gözləyir.***

***—Yox bu ola bilməz.***

***—Biz buranın daimi sakinləri hər şeyi hiss edirik, bilirik. Sən burda qonaqsan. Gülsüm çox yaxşı qadındır. Onu da, uşaqlarını da qoru. Gülarə kədərlə gülümsədi.***

***Turqay onun əlindən tutmaq istədi, ancaq birdən qaranlıq düşdü. Bu zülmət içində Turqay arvadının səsini eşitdi—Ayıldı! Komadan ayıldı, —onun göz yaşları Turqayın balıncını isladırdı. Turqay uşaqların da səsini eşitdi. -Ata biz daha adidas krossovkası istəmirik.***

***Turqay gözlərini açanda xəstəxananın ağ divanını, Gülsümün yorğun sifətində təbəssüm gördü.***

***Həyat öz keşməkeşliyi, mübarizəsi ilə gözəldir.***

**SON**

*Cənnətdə millət, Vətən, məqsəq, amal mübarəzə etmək məvhumları yox idi. Hər kəs ancaq yeyirdi gəzirdi, yorulanda yatırdı, ətrafdakı marallar, ceyranlar kimi. Turqay xeyli gəzdi. Nəhayət o bal axan çayı gördü. Çay kəhrəba rəngdə idi. Bu çayın ətrafında olanların çoxu uşaqlar idilər. Burada körpələr ceyranlarla, marallarla oynayırdılar. Burada hevanlar insanlardan qorxmurdu*